# Ana dilim – varlığım!





21 Fevral Beynəlxalq Ana Dili Günü münasibətilə ölkəmizin ayrı-ayrı təşkilatlarında, xüsusilə təhsil müəssisələrində müxtəlif seminarlar, aksiyalar, tədbirlər keçirilir. Həmin tədbirlərdən biri də Bakıdakı Rəfael Hüseynov adına 49 nömrəli "İntellekt" məktəb-liseydə baş tutdu. İlk olaraq Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı və Dövlət Himnimiz səsləndirildi.

Tədbirin aparıcıları həzin layla ilə sözə başladılar. Onlar dilin hələ beşikdə ikən ana laylası ilə qanımıza, canımıza hopduğunu qeyd etdikdən sonra sözü məktəbin direktoru Elza Bağırzadəyə verdilər. Elza xanım tədbir iştirakçılarını salamlayaraq ana dili, onun tarixi, qorunmasının vacibliyi, həmçinin bu sahədə həyata keçirilən dövlət siyasəti haqqında ətraflı danışdı, dili qorumağın hər bir vətəndaşın şərəf işi olduğunu qeyd etdi.

Sonra aparıcılar dilimizin tarixindən söhbət açaraq "Kitabi-Dədə-Qorqud" dastanlarına istinad etdilər. Əsərə aid olan nəzm parçalarını səsləndirdilər.

IX sinif şagirdləri Elmir və Mələk isə qədim dövrdən başlayaraq bu günə qədər dilimizin keçdiyi inkişaf yolundan danışdılar. Onlar məlumat verdikcə şagirdlərin hər bir dövrə aid bədii əsərlərdən nümunələr söyləməsi iştirakçılarda həmin dövr ədəbi dilimiz haqqında təsəvvür formalaşdırırdı.

Vətənimiz haqqında gözəl bir lirik şeir söyləndikdən sonra Sabir Rüstəmxanlının "Sağ ol, Ana Dilim!" əsərindən bir parça diqqətə çatdırıldı. Həmin anda ekranda Ustad Şəhriyarın öz səsi ilə "Heydərbabaya salam" poemasından bir parça səsləndirildi. Duyğusal anlar yaşayan tədbir iştirakçılarına daha sonra Şəhriyarın "Türkün dili" qəzəli təqdim edildi.

Sonra aparıcı müasir dövrdə "Türkdilli dövlətlərin birliyi" adlı təşkilatın yaradıldığını, dilin bizim birliyimizə verdiyi dəyəri xüsusi vurğuladı. Bu anda möhtəşəm "Anayurt Marşı" səsləndirildi. Eyni zamanda birlik rəmzi olan türk rəqsi təqdim olundu.

Şagirdlərin təqdimatında Səməd Vurğunun "Vaqif" əsərindən nümayiş etdirilən epizodlar iştirakçılara qürur hissi yaşatdı.

Sonda məktəbin təşkilatçı rəhbəri Sevinc xanım dilimizin qədimliyini, zənginliyini və şirinliyini bir daha qeyd etdi və zala müraciət edərək iştirakçılardan son zamanlarda dilimizdə eşitdikləri ən şirin kəlmənin hansı olduğunu soruşdu. Zaldan bir şagird "Qələbə xəbərləri" - deyərək qürurla səsləndi. Bu anda ekranda Ali Baş Komandanın Şuşanın azad olunması ilə bağlı xalqa çatdırdığı müraciət səsləndirildi. Sonra isə tədbir "Yaşa, Azərbaycan!" mahnısı ilə yekunlaşdı.

**Elçin MANAFOV,**
*Rəfael Hüseynov adına 49 nömrəli "İntellekt" məktəb-liseyin ədəbiyyat müəllimi*

Azərbaycan müəllmi.-2025.- 22 fevral, №7.- S.4.